# Qəbələdə qanvermə aksiyası

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun təşkilatçılığı ilə Qəbələ şəhərində «Qan verməklə başqasına həyat verirsən» kampaniyası çərçivəsində xeyriyyə aksiyası keçirilmişdir. Mərkəzi rayon xəstəxanasında keçirilən xeyriyyə aksiyasına icra hakimiyyətinin, idarə və təşkilatların kollektivləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, gənclər həvəslə qoşulmuşlar.



Müxtəlif qan xəstəliklərindən əziyyət çəkənlərə kömək məqsədilə keçirilən tədbirdə B. Eyvazov adına Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun Mərkəzi Qan Bankının Şəki regional bölməsinin əməkdaşları əvvəlcə qan vermək istəyən vətəndaşları müayinə etmiş və onlara müəyyən məsləhətlər verərək qanverməyə hazırlamışlar.

Qanvermə aksiyasında 98 nəfər rayon sakini könüllü olaraq iştirak etmişdir. Tədarük olunan qan və qandan hazırlanan preparatlardan hemofiliyalı və talassemiyalı, həmçinin qana ehtiyacı olan xəstələrin müalicəsində istifadə olunacaqdır. Qan verən şəxslərin hər birinə fəxri donor kartı verilmişdir. Gələcəkdə donorlarla əlaqə yaratmaq üçün onlar qeydiyyata alınaraq məlumat bazası yaradılmışdır.

«Qan verməklə başqasına həyat verirsən» adlı kampaniyanın maarifləndirmə avtobusu iyulun 5-dək Şamaxı, Tovuz, Gəncə, Göygöl və Xaçmaza səfər edəcəkdir.

**Şöhrət SÜLEYMANOV.**
**Foto S. Umuyevindir.**

# V Beynəlxalq Uşaq Muğam Festivalına seçim turu

Son zamanlar ölkəmizdə qədim irsimizin öyrənilməsi və təbliği ilə bağlı yüksək səviyyədə işlərin aparılmasına diqqət güclənmişdir. Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təşəbbüsü ilə görkəmli muğam ustalarımızın antalogiyasının işıq üzü görməsi, ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə respublika Muğam Mərkəzinin yaradılması deməyə əsas verir ki, bu işlərin regionlarda aparılması da məqsədəuyğundur.

Bu məqsədlə Azərbaycan Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Kainat" Gənclik Mərkəzinin təşkilatçılığı ilə V Beynəlxalq Uşaq Muğam Festivalının Bakı şəhərində keçiriləcək Final Mərhələsinə vəsiqə qazanmaq üçün 25 iyun 2013-cü il tarixdə Qəbələ Mədəniyyət Mərkəzində Şirvan bölgəsi üzrə (Qəbələ mərkəz-Şamaxı, İsmayıllı, Göyçay, Ağsu) seçmə turu keçirilmişdir. Seçmə turda yaşı 16-dək olan xalq mahnılarımızı və muğamlarımızı ifa etməyi bacaran uşaqlar iştirak etmişlər.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov, QHT təlim və resurs mərkəzinin direktoru Qalib Nəbiyev çıxış edərək layihənin məqsədinin gənc istedadların üzə çıxarılması, millimənəvi sərvətimiz olan muğamın inkişaf etdirilməsindən ibarət olduğunu bildirdilər.

Maraqlı və alqışlar altında keçən turun sonunda münsiflər heyətinin sədri Respublikanın Xalq Artisti Ağasəlim Abdullayev nəticəni elan etdi. Göyçay rayonundan Lalə Səmədova seçim turunun qalibi



olaraq oktyabr ayında Bakı şəhərində keçiriləcək final mərhələsinə vəsiqə qazandı.

Daha sonra "Kainat" Gənclik Mərkəzinin direktoru Rahib Rəsulzadə çıxış edərək respublika əhəmiyyətli bu layihənin formatı və məqsədi barədə danışaraq Seçmə turun keçirilməsində lazımı köməkliyə görə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevə təşəkkürünü bildirmişdir.

Tədbirin sonunda seçim turunun qalibinə və iştirakçılara xatirə hədiyyələri təqdim olundu.

**Mübariz AĞAYEV,**
**Gənclər və İdman İdarəsinin aparıcı məsləhətçisi.**

# Doğma ölkəmizdə

## Azərbaycan 2015-ci ildən sonrakı dövr üçün milli məsləhətləşmələrin nəticələrinin təsdiqi mövzusunda konfrans

Iyunun 21-də Bakıda BMT-nin təşkilatçılığı, Azərbaycan Respublikası Prezidenti Adminstrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin sədrliyi ilə sözügedən mövzuda konfrans keçirilmişdir. Konfransda dövlət və hökumət rəsmiləri, Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun, beynəlxalq təşkilatların təmsilçiləri, ziyalılar, ictimaiyyətin nümayəndələri, jurnalistlər iştirak etmişlər.

## Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci forumu

İyunun 21-də keçirilən forumda diaspor nümayəndələri ilə yanaşı, Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə respublikalarının dövlət və hökumət strukturlarının, qeyri-hökumət təşkilatlarının, elm, mədəniyyət və digər yaradıcı qurumların nümayəndələri iştirak etmişlər.

## «Narkomanlıqla mübarizədə gənclərin rolu» mövzusunda konfrans

Bakıdakı «Absheron Mariot İW hotelində Gənclər və İdman Nazirliyinin dəstəyi, Narkotiklərə Qarşı Milli Təbliğat Ofisinin və Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının təşkilatçılığı ilə «Narkomanlıqla mübarizədə gənclərin rolu» mövzusunda konfrans keçirilmişdir. Dünya Narkotiklərlə Mübarizə Gününə həsr olunmuş konfransda nazirlik, komitə, şirkət və icra hakimiyyətinin səlahiyyətli şəxsləri, Milli Məclisin deputatları, ölkəmizdə akkredit olunmuş şirkətlərin və beynəlxalq təşkilatların təmsilçiləri, qeyri hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

**N. ATAKİŞİYEV.**

# Təqvimdən sətirlər

**2 iyul** 1921-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indi universitet) yaradılıb.

**3 iyulda** Azərbaycanın görkəmli mütəfəkkiri, yazıçı, tarixçi Abbasqulu Ağa Bakıxanov Qudsi (1797—1847) anadan olub. Tiflis quberniya idarəsində tərcüməçi işləyb, bir sıra diplomatik tədbirlərdə, 1826—29-cu illərdə Rusiyanın İran və Türkiyə ilə müharibələrində, Türkmənçay danışıqlarında iştirak edib, polkovnik rütbəsi alıb, qabaqcıl rus və Azərbaycan ziyalıları ilə tanış olub. Tarixşünaslığa mühüm töhfə olan "Gülüstani-İrəm" əsəri 1841-ci ildə fars dilində nəşr olunub. Bu əsəri özü rus dilinə tərcümə edib. Əsər 1926-cı ildə rus, 1951-ci ildə Azərbaycan dilində çap olunub. Onun şeirləri, dilçiliyə aid əsərləri var. 1847-ci ildə Məkkə yaxınlığında vəfat edib.

**4 iyul** 1776-cı ildə ABŞ istiqlaliyyətini elan edib.

**5 iyulda** görkəmli ictimai xadim, jurnalist İsasultan Şaxtaxtinski (1851—1894) anadan olub.

**6 iyul** 1940-cı ildə görkəmli ictimai və dövlət xadimi Qazaxıstan Prezidenti Nursultan Nazarbayev anadan olub.

1926-cı ildə Bakı—Sabunçu elektrik dəmir yol xətti açılıb.

**7 iyulda** alman yazıçısı Lion Feyxtvanger (1884—1958) anadan olub. 1933-cü ildə Fransaya mühacirət edib, 1941-ci ildən ABŞ-da yaşayıb. Yaradıcılığa jurnalistiklə başlayıb. Çoxlu romanları var.

**8 iyulda** görkəmli fizik, Sosialist Əməyi Qəhrəmanı, Nobel və SSRİ Dövlət mükafatları laureatı İqor Tamm anadan olub. Əsas tədqiqatları kvant mexanikasına, onun tətbiqinə, şüalanma nəzəriyyəsinə, nüvə zərrəciklərinin təsirinə aiddir.

# Məktəbdə tədbir

Qəbələ şəhər 2 nömrəli tam orta məktəbində Azərbaycan Respublikasının Silahlı Qüvvələri gününə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə məktəbin bütün müəllim və şagird kollektivi iştirak edirdi.

Tədbirdə təhsil şöbəsinin hərbi-idman metodisti İbrahim Faxlulov, şəhər 2 nömrəli tam orta məktəbin hərbi rəhbəri Rəfail Əbdürəhimov, 4 nömrəli tam orta məktəbin hərbi rəhbəri Həsən Məmmədov, 3 nömrəli tam orta məktəbin tarix müəllimi Gülər Müzəfərova çıxış edərək Azərbaycan Milli Ordusunun yaranma tarixindən və bu gündən danışdılar, ordumuzun MDB məkanında ən güclü ordulardan biri olduğunu vurğuladılar.

**E. MƏSİMOVA,**
**Qəbələ şəhəri 2 nömrəli tam orta məktəbin direktor əvəzi.**